

Azərbaycan Qlobal Fonda dəstək verəcək

2



Azərbaycan Qlobal Fondun donor cəmiyyətinə töhfə verir

2




Səhiyyə naziri qripə qarşı profilaktik tədbirlər barədə əmr imzalayıb

2

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 19-20 (683) 31 oktyabr 2019-cu il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az

## Milli Oftalmologiya Mərkəzinin Şəki filialı açıldı




7

## Səhiyyə naziri Oqtay Şirəliyev Göyçayda vətəndaşları qəbul etdi




2

## Sinir-əzələ xəstəlikləri üzrə I Bakı Beynəlxalq Konfransı



5

## Bakıda Neonatologiya üzrə Beynəlxalq Konqres




8

Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az

### *Афоризм*

*Счастлив не тот, кто имеет всё лучшее, а тот, кто извлекает всё лучшее из того, что имеет.*

*Конфуций.*

# Azərbaycan Qlobal Fonda dəstək verəcək



**Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

AZƏRTAC-ın verdiyi məlumata görə, Fransa Prezidenti onun təşəbbüsü ilə yaradılan QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fonda Azərbaycan tərəfinin dəstək verməsini Azərbaycan Respublikası Prezidentindən xahiş edib.

Prezident İlham Əliyev Fransa Prezidentinin bu təşəbbüsünə öz dəstəyini ifadə edib və Azərbaycan tərəfinin bu xəstəliklərlə mübarizə işinə əhəmiyyətli töhfə verməyə hazır olduğunu söyləyib.

Fransa Prezidenti dəstəyə görə minnətdarlığını bildirib və Fondun bu günlərdə Lionda keçiriləcək konfransında Azərbaycanın dəstəyinin vurğulanacağını qeyd edib.

Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətlərin inkişafı və iki ölkənin prezidentləri arasında gələcək təmaslarla bağlı məsələləri də müzakirə ediblər.

# Azərbaycan Qlobal Fondun donor cəmiyyətinə töhfə verir

**Fransanın Lion şəhərində QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fondun fəaliyyətini maliyyələşdirmək və 2030-cu ilədək bu epidemiyalara son qoymaq məqsədi ilə Fondun VI konfransı keçirilib. Hədəf zəruri çağırışlara cavab vermək üçün 14 milyard dollar toplamaqdır.**



Azərbaycan Respublikasının Qlobal Fond ilə tərəfdaşlığı çərçivəsində donor olaraq fonda töhfə verməsi tədbirdə xüsusi vurğulanıb.

Konfransın işində 700 nümayəndə, o cümlədən 10 dövlət və hökumət başçısı iştirak edib.

Ölkəmizi toplantıda Azərbaycan Səhiyyə nazirinin müavini Elsevər Ağayevin başçılığı ilə nümayəndə heyəti təmsil edib. Azərbaycanın Fransadakı səfirliyinin müşaviri Vaqif Ağayev də konfransda iştirak edib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fond ilə əməkdaşlığı 2005-ci ildə başlayıb və ilk dövrdə insanın immun çatışmazlığı virusu infeksiyasına qarşı fəaliyyəti əhatə edib. Sonralar vərəm və malyariya xəstəlikləri ilə mübarizə sahəsində layihələrlə əməkdaşlıq daha da genişləndirilib.

Bu fikirləri Səhiyyə nazirinin müavini Elsevər Ağayev Qlobal Fondun VI konfransındakı çıxışında söyləyib.

Nazir müavini bildirib ki, xarici donorların, beynəlxalq təşkilatların tərəfdaşlığı, yüksək siyasi iradə və tibb ictimaiyyətinin səfərbərliyi müəyyən müsbət nəticələr verib. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) bu xəstəliklərlə bağlı preventiv strategiyası bu epidemiyalara yoluxma və onlardan ölüm hallarını azaldıb.

Ölkəmizdə hökumət proqramları ilə əlaqələndirilən Qlobal Fondun layihələrinin uğurla həyata keçirilməsi nəticəsində son 5 ildə daha malyariya xəstəliyinə rast gəlinmir. Bununla bağlı malyariyadan azad ölkə statusu üçün ÜST-nin sertifikatını almaq proseduruna başlanılıb.

Səhiyyə nazirinin müavini Elsevər Ağayev Azərbaycanda son on il ərzində QİÇS, vərəm və malyariyaya qarşı mübarizədə əldə olunan uğurlardan söz açıb. Qlobal Fondun maliyyə davamlılığı və birgə maliyyələşdirmə siyasətinə əsasən, hər il bu xəstəliklərlə mübarizə üçün dövlət büdcəsindən ayrılan vəsait vaxtaşırı artırılır. Hökumətin və Səhiyyə Nazirliyinin müvafiq normativ bazası qurulub və ÜST tövsiyələrinə uyğun olaraq daim təkmilləşdirilir.

Sosialyönümlü və iqtisadi cəhətdən inkişaf etmiş ölkəmiz bugünkü donor konfransında iştirak etməklə Qlobal Fond ilə tərəfdaşlığında yeni səhifə açaraq, donor cəmiyyətinə töhfə vermək üçün ilk addımlarını atır.

«Ümid edirik ki, güclü və dayanıqlı səhiyyə sistemlərinin qurulmasına və Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bundan sonra da Qlobal Fond ilə birlikdə çalışacağıq", – deyə Elsevər Ağayev diqqətə çatdırıb.

Qeyd edək ki, 3 il əvvəl Qlobal Fondun yenidən maliyyələşdirilməsi məqsədilə 12,2 milyard dollar toplanılıb. İki həftə əvvəl Fransa Prezidenti E.Makron BMT Baş Assambleyasında çıxışı zamanı 14 milyard dollara ehtiyac olduğunu diqqətə çatdırıb. Bu məbləğ cari ilin yanvar ayında Qlobal Fond tərəfindən müəyyən edilib. Bunun qarşıdan gələn 10 il müddətində dünya səhiyyəsi üçün təhlükə yaradan bu 3 yoluxucu xəstəliklə mübarizə üzrə məqsədlərə çatmaq üçün minimum məbləğ olduğu qeyd edilib. Ancaq bir çox QHT-lər bu məbləğin qaneedici olmadığını, əslində 16-18 milyard dollara ehtiyac olduğunu bildiriblər.

2002-ci ildə yaradılan Qlobal Fond dövlətlər arasında tərəfdaşlıq platformasıdır. Yarandığı dövrdən bu günədək onun fəaliyyəti sayəsində 32 milyon insanın həyatının xilas edildiyi bildirilir.

# Səhiyyə naziri Göyçayda vətəndaşları qəbul etdi




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə səyyar qəbul günlərinin təşkili davam edir. Bu görüşlərdə vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılır, onların həlli istiqamətində tədbirlər görülür.**

Tərtib edilmiş cədvələ uyğun olaraq, Səhiyyə naziri Oqtay Şirəliyevin bu qəbildən növbəti qəbul günü Göyçay Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Nazir Göyçay və Ağsu rayonlarının sakinlərini qəbul edib, onların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Onların bəziləri yerindəcə həll edilib, digərlərinin həlli ilə bağlı göstərişlər verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

# Səhiyyə naziri qripə qarşı profilaktik tədbirlər barədə əmr imzalayıb

**Səhiyyə naziri Oqtay Şirəliyev «2019-2020-ci illərin payız-qış mövsümündə respublikada qrip və kəskin respirator xəstəliklərə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə» əmr imzalayıb.**

Sənəddə 2019-2020-ci illərin payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədilə nazirliyin tibb idarə və müəssisələrinin rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Əmrdə əhali arasında qrip və kəskin respirator virus xəstəliklərinin profilaktikası məqsədilə sanitariya maarifi işinin aparılması, ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində tibbi müşahidələr aparılmasının təşkili, qripə şübhəli xəstələrin, xüsusilə uşaqlar və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palataların ayrılmasının təmini, zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiqi, tibb personalının fərdi qoruyucu vasitələrdən (maskalardan) istifadə etməsinin təmini göstərişləri öz əksini tapıb.

Eyni zamanda, sənəddə profilaktik dezinfeksiya işlərinin aparılması, qrip və kəskin respirator virus xəstəliklərinin müalicəsi üçün dərman preparatları ehtiyatının yaradılması, şəhər və rayonların gigiyena və epidemiologiya mərkəzlərinin rəhbərlərinə ümumtəhsil və məktəbəqədər uşaq müəssisələrində, habelə tibb müəssisələrində sanitariya-gigiyena norma və qaydalarına, dezinfeksiya rejiminə ciddi riayət edilməsinin gücləndirilməsi sahəsində də göstərişlər verilib.

# Elmi-Tibbi Şuranın növbəti iclası keçirilib

**Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının növbəti iclasında ilkin səhiyyə xidmətinin klinik protokollarının tətbiqi ilə bağlı məsələlər müzakirə olunub. Həmçinin tibbdə elmi adların və dərəcələrin verilməsinin yeni qaydaları, Elmi-Tibbi Şura tərəfindən akkreditə olunmuş tədbirlər haqqında hesabat və s. mövzular iclasın gündəliyinə daxil edilib.**

İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Səhiyyə siyasəti və planlaşdırma şöbəsinin müdiri Nabil Seyidov gündəliyə daxil edilən mövzulara dair məruzələrlə çıxış edib.

Professor Oqtay Seyidbəyovun sədrliyi ilə keçən toplantıda tibbdə elmi adların və dərəcələrin verilməsinin yeni qaydaları müzakirə olunub. Elmi-Tibbi Şura tərəfindən akkreditə edilən tədbirlər haqqında hesabat iclas iştirakçılarının diqqətinə çatdırılıb və qəbul olunub.

# Səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobilləri verilib

**Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə 10 təcili tibbi yardım avtomobili təqdim olunub.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək, muxtar respublikada səhiyyə sisteminin yenidən qurulması, ixtisaslı kadrların hazırlanması, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması üzrə görülən tədbirlərdən danışıb. Bildirib ki, səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin və səhiyyə tibbi informasiya sisteminin yaradılması səhiyyə xidmətinin səviyyəsini xeyli yüksəldib. Yeni təcili tibbi yardım avtomobillərinin təqdim olunmasını bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı adlandıran Niyazi Novruzov yaradılan şəraitə görə muxtar respublikanın səhiyyə işçiləri adından minnətdarlıq edib.



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov** muxtar respublikanın səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobillərinin verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək deyib ki, bu gün ölkəmizdə səhiyyə xidmətinin keyfiyyətinin və həkimlərin peşə hazırlığının artırılması istiqamətində lazımi tədbirlər görülür. Muxtar respublikada da bu işlər uğurla həyata keçirilir, səhiyyə müəssisələri yenidən qurulur, müasir tibbi avadanlıqlarla təmin olunur. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində həkim hazırlığı aparılır. Həyata keçirilən tədbirlər Naxçıvan səhiyyəsini yeni inkişaf mərhələsinə çıxarıb. Bütün bunlara dövlətin və səhiyyə işçilərinin birgə səyi sayəsində nail olunub. Səhiyyənin əsas sahələrindən biri də təcili tibbi yardım xidmətinin təşkilidir. Səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobillərinin təqdim olunması bu sahədə xidmətin səviyyəsini xeyli artıracaq.

Ali Məclisin Sədri muxtar respublikada infeksion xəstəliklərin, eləcə də ana və uşaq ölümlərinin qarşısının alındığını, həmçinin təcili tibbi yardımın təşkili zamanı ölüm hallarının qeydə alınmadığını bildirib, bütün bunlara görə səhiyyə işçilərinə təşəkkür edib.

**Şərur Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Adəm İmanov** minnətdarlıq edərək deyib ki, aparılan səhiyyə islahatları sakinlər tərəfindən razılıqla qarşılanır: «Tibb işçilərinin əməkhaqlarının artırılması, iş şəraitinin yaxşılaşdırılması isə məsuliyyətimizi artırır. Bu gün Şərur Rayon Mərkəzi Xəstəxanasına da yeni təcili tibbi yardım avtomobili verilir. Çalışacağıq ki, göstərilən etimadı doğruldaq, əhaliyə nümunəvi səhiyyə xidməti göstərək».

Sonra Ali Məclisin Sədri təcili tibbi yardım avtomobillərinin açarlarını təqdim edib.

Türkiyə istehsalı olan bu avtomobillərdə oksigen balonları, hərəkətli araba və xərəklər, ilkin tibbi yardım çantaları, dərman vasitələri və digər avadanlıqlar xəstələrin təxliyəsi zamanı ilkin tibbi müdaxilə və reanimasiya tədbirlərinin aparılmasına imkan verəcək.

Yeni təcili tibbi yardım avtomobilləri Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinə, Təcili Tibbi Yardım Mərkəzinə və rayon mərkəzi xəstəxanalarına təqdim edilib.

# Respublika Narkoloji Mərkəzində UNAIDS-in xüsusi məsləhətçisi ilə görüş keçirilib

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzində (RNM) Birləşmiş Millətlər Təşkilatının (BMT) İİV/QİÇS üzrə Birgə Proqramının (UNAIDS) Şərqi Avropa və Mərkəzi Asiya üzrə xüsusi məsləhətçisi Mişel Kazaçkin ilə görüş keçirilib.**

Tədbirdə RNM-in direktoru Araz Manuçehri-Lalei ölkəmizdə narkomaniyaya qarşı aparılan işlər barədə məlumat verib.

Görüşdə professor Mişel Kazaçkin qeyd edib ki, BMT qurumları arasında narkotik istifadəçilərinin cinayətkar olmaması üzrə ümumi mövqe qəbul edən 31 təşkilat var: «BMT-nin sosial istiqamətlər üzrə təsisatları cəmiyyətdə narkotikdən istifadəyə görə nəzərdə tutulmuş cəzaların dekriminallaşdırılması üzrə vahid mövqe tuturlar».



Tədbirdə insanların narkotik istifadə etmələrinə görə cinayət məsuliyyətinə cəlb olunmamaları təcrübəsinin mövcudluğu cəmiyyətdə narkotiklərə olan meyilliliyin azalmasına gətirib çıxaran başlıca amil kimi qeyd edilib. Azərbaycanda qeydiyyatda olan narkomanların metadonla əvəzedici müalicə proqramına cəlb edilmələrinin çox səmərəli üsul olması da diqqətə çatdırılıb.

Sonda əlaqələrin daha sıx inkişaf etdirilməsi üçün bu kimi görüşlərin tez-tez keçirilməsinin vacibliyi vurğulanıb.

# Elmi Cərrahiyyə Mərkəzinin mütəxəssisləri Tərtər əhalisinə tibbi yardım göstəriblər

**Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin mütəxəssisləri Tərtər rayonunda əhalinin tibbi müayinəsini həyata keçiriblər.**

Elmi Cərrahiyyə Mərkəzinin ümumi cərrah, kardiocərrah, damar cərrahı, cərrah-endokrinoloq, proktoloq, kardioloq, qastroenteroloq, endoskopist və şüa diaqnostika ixtisasları üzrə mütəxəssisləri Tərtər Rayon Mərkəzi Xəstəxanasında əhaliyə konsultativ tibbi yardım göstəriblər.



Xəstəxanada tibbi müayinələrin aparılması üçün zəruri şərait yaradılıb. Mərkəzin həkimləri tibbi müayinələrdə həvəslə iştirak etdiklərini bildiriblər. Sakinlər də müayinələrdən razılıqlarını ifadə ediblər.

Elmi Cərrahiyyə Mərkəzinin mütəxəssisləri həmçinin yerli həkimlərlə təcrübə mübadiləsi aparıb, bilik və bacarıqlarını bölüşüblər.

# Pediatrlar üçün səyyar kurslar təşkil olunub



Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Pediatriya kafedrası Salyan Rayon Mərkəzi Xəstəxanasında pediatrlar üçün «Təxirəsalınmaz pediatriya» mövzusunda səyyar kurs təşkil edib. Kursda Salyan və Neftçalada fəaliyyət göstərən sahə pediatrları, neonatoloqlar, kənd tibb məntəqələrinin ailə həkimləri iştirak ediblər.

Kursun əsas məqsədi uşaqlarda təxirəsalınmaz vəziyyətlərdə yardımın təşkili prinsipləri, diaqnostika və tibbi yardımın həyata keçirilməsi məsələləri üzrə həkimlərin bilik və bacarıqlarını artırmaqdan ibarət olub. Bununla yanaşı, müdavimlərə təxirəsalınmaz vəziyyətlərin qarşısının alınması barədə məlumatlar da təqdim edilib.

Mühazirə və praktik məşğələləri ADHTİ-nin Pediatriya kafedrasının əməkdaşları — professor Aslan Həsənov, dosentlər Mətanət Qaraxanova, Fəxrəddin Qarayev və Sənubər Vəliyeva aparıblar.

Analoji kurs Lənkəran Rayon Mərkəzi Xəstəxanasında da keçirilib. Səyyar kursda Lənkəran həkimləri ilə yanaşı, Masallı, Lerik və Astaradan olan həkim-pediatr, neonatoloq və ailə həkimləri də iştirak ediblər.

Dərslər kafedranın əməkdaşları — professorlar Rəqsanə Məmmədova və Aslan Həsənov, dosentlər Mətanət Qaraxanova və Sənubər Vəliyeva tərəfindən aparılıb.

# Özbəkistanlı həkimlər Azərbaycanın Davamlı Tibb Təhsili sistemi ilə tanış olublar

**Özbəkistan Səhiyyə Nazirliyinin nümayəndə heyəti ölkəmizdə diplomdan sonrakı tibb təhsilinin strukturu ilə tanış olmaq, bu sahədəki faydalı təcrübəni öyrənib tətbiq etmək məqsədilə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) olublar.**

Özbəkistan Səhiyyə Nazirliyinin Elm və Təhsil Müəssisələri idarəsinin rəisi, professor Uktam İsmailov qarşılıqlı əlaqələrin gücləndirilməsini və ortaq layihələrin işlənib hazırlanmasını təklif edib, Azərbaycanda tətbiq olunan Davamlı Tibb Təhsili sistemində çox faydalı elemlər olduğunu bildirib.

ADHTİ-nin rektoru, professor Nazim Qasımov rəhbərlik etdiyi müəssisədə diplomdan sonrakı tibb təhsili, rezidentura təhsili və aparılan elmi araşdırmalar haqqında qonaqlara ətraflı məlumat verərək deyib ki, iki dövlətin müvafiq müəssisələri arasında qarşılıqlı əməkdaşlıq haqqında sazişin imzalanması gələcəkdə daha geniş əlaqələr üçün şərait yaradacaq.

Görüşdə qarşılıqlı əlaqələrin gücləndirilməsi üçün atılması zəruri olan addımlar müzakirə edilib.

# Gəncədə cərrahlar üçün səyyar distant kurs

**Davamlı Tibbi Təhsil proqramına uyğun olaraq, Gəncədəki 3 saylı Şəhər Xəstəxanasında Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) uşaq cərrahiyyəsi və plastik cərrahiyyə kursları tərəfindən ümumi cərrahiyyə üzrə səyyar distant kurs təşkil edilib.**

Təlimdə Gəncə şəhərinin tibb müəssisələrində çalışanlarla yanaşı, ətraf rayonlardan gələn həkim-cərrahlar da iştirak ediblər.

Əsas məqsədi döş qəfəsi cərrahiyyəsi, qida borusu və diafraqmanın cərrahi xəstəlikləri haqqında həkimlərin bilik və bacarıqlarını artırmaqdan ibarət olan kursda dərsləri ADHTİ-nin Cərrahiyyə kafedrasının müdiri, professor Nazim Qasımovun rəhbərliyi ilə kafedranın əməkdaşları aparıblar.

# «Psixoaktiv maddələrdən sui-istifadə edən insanlarda əvəzedici terapiya, zərərin azaldılması və reabilitasiya»

## *Respublika Narkoloji Mərkəzi bu mövzuda seminar keçirib*

**Respublika Narkoloji Mərkəzinin (RNM) təşkilatçılığı ilə «Psixoaktiv maddələrdən sui-istifadə edən insanlarda əvəzedici terapiya, zərərin azaldılması və reabilitasiya» mövzusunda seminar-treninq keçirilib. Tədbir Azərbaycan Respublikası Prezidentinin «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi barədə 22 iyul 2019-cu il tarixli Sərəncamının «Beynəlxalq tədbirlər» bəndində Səhiyyə Nazirliyinin də icraçı olduğu 4.3.3 yarımbəndinin icrasını həyata keçirmək məqsədilə təşkil olunub.**



Dövlət qurumları nümayəndələrini, narkoloq, psixiatr və kliniki psixoloqları bir yerə toplayan seminarda həmçinin mərkəz tərəfindən dəvət olunmuş Çexiya Respublikasının Neyropsixiatriya İnstitutunun Kliniki addiktologiya, psixiatriya və əvəzedici müalicə fakültəsinin həkimi Vladimir Kmox iştirak edib.

Tədbirin ilk günü seminarın moderatoru, RNM-in şöbə müdiri Şəlalə Tahirli ümummilli lider Heydər Əliyevin cəmiyyətimizin sağlam inkişafının vacibliyini vurğulayaraq söylədiyi dəyərli kəlamı ilə çıxışına başlayıb: «Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və əqli sağlamlığı uğrunda aparılan mübarizədir». Bildirilib ki, ulu öndərin bütün sahələr və istiqamətlər üzrə siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin siyasəti və fəaliyyəti sayəsində Azərbaycan davamlı inkişafdadır. O cümlədən, səhiyyə sistemi də dinamik inkişaf edir. Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin olunması dövlət başçısının daim diqqət və nəzarətindədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu da Azərbaycanda səhiyyənin tərəqqisinə mühüm töhfələr verir. Ölkə rəhbərliyinin narkomaniya ilə mübarizədə hüquq-mühafizə orqanları qarşısında qoyduğu konkret vəzifələr bu ümumbəşəri fəlakətin ölkəmizdə yayılması təhlükəsinə Azərbaycanın qətiyyətli mövqeyini əks etdirir. Dövlət başçısı tərəfindən bu sahə üzrə son 15 ildə 13 fərman, 56 sərəncam imzalanıb, Milli Məclis tərəfindən 38 qanun qəbul edilib, bir neçə dövlət proqramı hazırlanıb.

Çexiyanın Azərbaycandakı səfirinin müavini Daniel Putik, Səhiyyə Nazirliyinin Layihə Əlaqələndirmə Bürosunun direktoru Yaşar Orucov, Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupunun rəhbərinin müavini Tanrıverdi Aydınov tədbiri yüksək qiymətləndirərək, iştirakçılara uğurlar arzulayıblar.

Vladimir Kmox «Metadon terapiyasının tarixi və alınmış uğurlu nəticələr», «Opioidlərin əvəzedici terapiyası və zərərin azaldılması», «Əvəzedici terapiyanın növləri» mövzularında təlimlər keçirib.

Bakı şəhər Narkoloji Dispanserinin həkim-narkoloqu Fizzə Baxışova «Azərbaycanda əvəzedici terapiya proqramı» mövzusunda çıxış edib.

Daha sonra tədbir iştirakçıları Bakı şəhər Narkoloji Dispanserindəki şəraitlə tanış olublar.

Seminarın ikinci günü Respublika Narkoloji Mərkəzinin direktoru Araz Manuçehri-Lalei tədbirin əhəmiyyətindən, məqsədindən, narkotik vasitələrin insanların sağlamlığına və şəxsiyyətinə, cəmiyyətə və bəşəriyyətə zərərindən söz açıb.

Vladimir Kmox «Opioidlərin əvəzedici terapiyası və zərərin azaldılması prinsipləri», «Əvəzedici terapiyanın aparılmasında psixiatrın və digər mütəxəssislərin rolu», «Əvəzedici terapiyanın ağırlaşmaları və onların müalicəsi» mövzularında məruzələrlə çıxış edib.

RNM-in həkim-narkoloqu Sona Xudaverdiyevanın «Narkologiyada zərərin azaldılması proqramları», RNM-in sosial işçisi Fidan Alışova və psixoloq Nərgiz Bağırovanın «Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası» mövzularında məruzələri dinlənilib.

Seminarın sonuncu günü Vladimir Kmoxun əvəzedici (metadon) terapiyanı qəbul edən pasiyentlərin reabilitasiyası və motivləşdirilmiş müzakirənin bu reabilitasiyada rolu barədə çıxışları ilə davam edib.

«Penitensiar sistemdə əvəzedici (metadon) terapiyanın tətbiqi» mövzusunda RNM-in həkim-narkoloqu Zamin Əliyev çıxış edib.

Mövzu ilə bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb. Təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

İştirakçılar həmçinin Səhiyyə Nazirliyinin 1 nömrəli Respublika Psixiatriya Xəstəxanası ilə tanış olublar.

# Böyük Britaniya Baş Nazirinin ticarət elçisinə yubiley medalı təqdim olunub



**Böyük Britaniyanın Baş Nazirinin ticarət elçisi Baronessa Emma Nikolson və onun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin (ATU) qonağı olub, rəhbər şəxslərlə görüşüb.**

Görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlara ali məktəbin tarixi, təhsil və tədris prosesi, beynəlxalq əlaqələri haqqında məlumat verib. Universitetin elmi-tədqiqat və tədris sahəsində fəaliyyəti barədə ətraflı danışan rektor Azərbaycan və Böyük Britaniya arasında bir sıra strateji istiqamətlərdə, o cümlədən tibb təhsili sahəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyindən söz açıb. O, ATU-nun İngiltərədəki təhsil müəssisələri ilə münasibətlərinin yüksəlməsində maraqlı olduğunu bildirib.

Baronessa Emma Nikolson Böyük Britaniya ilə Azərbaycan arasında bir sıra vacib sahələrdə, o cümlədən səhiyyə sahəsində mövcud əməkdaşlığın səviyyəsindən razılığını ifadə edib. Qeyd edib ki, tibbi təhsil sahəsində mövcud əlaqələrin daha da genişləndirilməsi, uğurla inkişafı üçün klinik və elmi tədqiqatlar, həmçinin kadr mübadiləsinin təşkili böyük əhəmiyyət kəsb edir.

Görüşün sonunda Baronessa Emma Nikolsona milli xatirə hədiyyəsi və universitetin 80 illik yubiley medalı təqdim olunub.

Fəxri qonaqlar həmçinin ATU-nun Tədris Cərrahiyyə Klinikasının neonatologiya, mama-ginekologiya, reanimasiya şöbələrini gəzib, xəstələrin müalicəsi üçün istifadə edilən müasir avadanlıqları, müalicə prosesini izləyiblər. Bununla yanaşı, klinikanın Tədris Treninq Mərkəzində tələbələrin təlim keçməsi üçün yaradılan şəraitlə tanış olublar. Qonaqlar Tədris Cərrahiyyə Klinikasında xəstələrin yüksək keyfiyyətli müalicəsi üçün yaradılan şəraitin dünya standartlarına uyğun səviyyədə olmasından məmnunluqlarını ifadə ediblər.

# Kardiologiya İnstitutunda «Peripartum kardiomiopatiya» mövzusunda elmi-praktik seminar



**Akademik C.M.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunda «Peripartum kardiomiopatiya» — hamilə qadınlarda və doğuşdan sonrakı erkən mərhələlərdə ürək çatışmazlığına dair elmi-praktik seminar keçirilib.**

Peripartum kardiomiopatiya hamiləliyin son dörd həftəsi və hamiləlikdən sonrakı dövrdə inkişaf edən, ana ölümü ilə nəticələnə bilən ürək problemidir və hamiləlik zamanı çox tez-tez rast gəlinən patologiyalardandır. Ürək xəstələrində olan bir sıra şikayətlər — başgicəllənmə, təngnəfəslik, hava çatışmazlığı hissi, uzandıqda boğulma, öskürək, topuqlarda ödem, tez yorulma hamilələrdə adi halda görülən simptomlar olduğu üçün onlara diqqət yetirilmir və əksər hallarda mövcud ürək problemləri erkən mərhələdə aşkarlanmır, diaqnoz qoyularkən isə artıq xəstəliyin son mərhələləri inkişaf etmiş olur.

Həmin halların profilaktikası məqsədi daşıyan seminar hamiləliyin son aylarında və hamiləlikdən sonra şikayətlər olduqda, xəstəliyin erkən diaqnostikası zamanı kardioloqun baxışının və exokardioqrafik müayinənin aparılmasının zəruriliyini diqqətə çatdırıb.

Tədbir iştirakçılarına «Kardioloq və ginekoloqların bir araya gəldiyi məqam — peripartum kardiomiopatiya» mövzusunda maarifləndirici kitabçalar paylanılıb və videoçarx nümayiş olunub.

# Sinir-əzələ xəstəlikləri üzrə I Bakı Beynəlxalq Konfransı



**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında Sinir-əzələ xəstəlikləri üzrə I Bakı Beynəlxalq Konfransı keçirilib.**

Tədbirdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Milli Nevroloqlar Assosiasiyası ilə uzun illərdir əməkdaşlıq etdiklərini bildirib, beynəlxalq konfransı bu əməkdaşlığın göstəricisi adlandırıb. Rektor qeyd edib ki, ATU-da nevrologiyanın, xüsusən də, sinir-əzələ xəstəliklərinin öyrənilməsinə diqqət edilir, onların müalicəsində yeni yanaşmalar nəzərə alınır.

Milli Nevroloqlar Assosiasiyasının prezidenti, professor Rəna Şirəliyeva bildirib ki, belə elmi konfransların keçirilməsi artıq bir ənənəyə çevrilib. Onun sözlərinə görə, beynəlxalq tədbirlər Azərbaycan alimlərinin inkişafı üçün çox faydalıdır: «Belə konfranslar həkimlərin nəzəri və praktik biliklərini artırmasına, qarşılıqlı fikir mübadiləsi aparmağa kömək edir». Professor R.Şirəliyeva konfrans çərçivəsində təlim kurslarının da keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

Konfrans öz işini elmi məruzələrlə davam etdirib. Almaniya, Gürcüstan, Azərbaycan və Rusiyadan olan mütəxəssislərin iştirak etdiyi beynəlxalq konfransda əzələ-sinir xəstəliklərinin müasir diaqnostikası və müalicəsinə dair xarici mütəxəssislər tərəfindən yeni məlumatlar paylaşılıb. Tədbirdə müxtəlif dərəcəli sinir-əzələ, genetik nevroloji patologiyaların diaqnostik meyarları, neyrofizioloji diaqnostika üsulları haqqında müzakirələr aparılıb.

Konfransda həmçinin elektroneyromioqrafiya diaqnostik metodu üzrə təməl və təkmil səviyyələrdə təlim keçirilib.

# Rezidentlərin konfransında müxtəlif mövzularda təqdimatlar edilib

**Respublika Müalicə Diaqnostika Mərkəzində (RMDM) rezidentlərin konfransı keçirilib.**

RMDM-in baş həkimi Könül Xəlilova bildirib ki, tibb ixtisasları üzrə baza ali tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığı forması olan rezidenturada təhsil alanlar üçün klinikada geniş imkanlar yaradılıb və rezidentlər burada yüksək ixtisaslı həkimlərdən həm nəzəri biliklər, həm də təcrübə əldə edir, gələcəyin peşəkar həkimləri kimi yetişmək üçün ilk addımlarını atırlar.



«Açıq oval dəlik. Kriptogen insult», «Renal transplantasiya xəstələrində əməliyyatsonrası ağciyər patologiyalarının radioloji dəyərləndirilməsi», «Koxlear implantasiyalarda preoperativ radioloji dəyərləndirmədə rast gələnən patologiyalar», «Hiperaldosteronizm — Conn sindromu», «Lupus ensefalitində radioloji görüntüləmə», «İnfantil hipertrofik pilor stenozunun USM diaqnostikası», «Hepatit C virusu: Seroloji və molekulyar diaqnostika», «Hamiləlik və uşaqlıq artımlarının burulması», «Kounis sindromu», «Uşaqlıq boşluğunda yad cisim», «Anadangəlmə lobar emfizema», «Serebral vaskulyar malformasiyalar», «Pediatrik uroloji anomaliyalarda və patologiyalarda radioloji görüntüləmə», «Fallo tetradanın total korreksiya əməliyyatından sonra rast gələnən nonkardiak ağırlaşma» və «Travmalı xəstələrdə tibbi strategiya» mövzularında təqdimatlar edilib.

# Səhiyyə Nazirliyi yanında İctimai Şura monitorinq keçirib

**Səhiyyə Nazirliyi yanında İctimai Şuranın üzvləri «2016-2020-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı» və «2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı» çərçivəsində icra olunan tədbirlərin monitorinqi məqsədilə B.Ə.Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olublar.**

Bu barədə bizə İctimai Şuranın sədr müavini, «İnkişafa Doğru Qadın Təşəbbüsü» İctimai Birliyinin sədri Ziba Nəbiyeva məlumat verib. O bildirib ki, monitorinqlə bağlı olaraq İnstitutun məsul şəxsləri ilə görüş keçirilib.

İnstitutun direktoru, tibb üzrə fəlsəfə doktoru Zöhrə Əlimirzəyeva, Səhiyyə Nazirliyinin hematologiya üzrə baş mütəxəssisi, tibb üzrə fəlsəfə doktoru Çingiz Əsədov, İnstitutun nəzdindəki Mərkəzi Qan Bankının rəhbəri Pərvanə Hacıyeva, İctimai Şuranın katibi, tibb üzrə fəlsəfə doktoru, həkim-terapevt Taryel Eyvazov və İctimai Şuranın üzvü, «Azərbaycan Diabet Liqasının» sədri, həkim-endokrinoloq Yeganə Sultanovanın iştirak etdiyi görüşdə qan xidməti müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, qanın və qan komponentlərinin təhlükəsizliyinin təmin edilməsi, donor qanının transmissiv infeksiyalara yoxlanılması metodlarının təkmilləşdirilməsi, həmçinin qanın bədxassəli xəstəliklərinin diaqnostikası və müalicəsi, pasiyentlərin sitostatik və innovasion dərman preparatları ilə təmin edilməsi, onların qan komponentlərinə olan tələbatının ödənilməsi istiqamətində görülən işlər geniş müzakirə mövzusu olub.

Görüşdən sonra İctimai Şura üzvləri Hematologiya və Transfuziologiya İnstitutunun qanın bədxassəli xəstəliklərinin müayinə və diaqnostikası aparılan laboratoriyaları ilə tanış olublar. Qeyd edilib ki, müasir avadanlıq və reaktivlərlə təchiz olunmuş laboratoriyalarda aparılan müayinələrin köməyi ilə xromosom səviyyəsində gedən patoloji dəyişikliklər aşkarlanır və qanın bədxassəli xəstəliklərinin tam diferensial diaqnostikası müəyyən edilir. Onkohematoloji xəstəliklərin bir çox növlərinin müalicəsi artıq təkcə kimyaterapiya ilə deyil, elmdə yeni istiqamət olan target, yəni hədəfə molekulyar istiqamətlənmiş preparatlarla aparılır. Hədəf terapiyası isə şiş hüceyrələrinin özündə olan konkret molekullara qarşı yönəldiyinə görə, orqanizmin sağlam hüceyrələrinə daha az təsir edir. Həmçinin bildirilib ki, Hematologiya və Transfuziologiya İnstitutunda qeydiyyata alınmış pasiyentlər dövlət hesabına yüksək keyfiyyətli sitostatik və innovasion dərman preparatları ilə təmin edilirlər. Artıq leykozların diaqnostikası və müalicəsi məqsədi ilə xəstələrin digər ölkələrə getməsinə ehtiyac qalmır.

Daha sonra İnstitutun nəzdində yerləşən Mərkəzi Qan Bankında donorlar üçün yaradılan şərait, maddi-texniki baza və donorların qeydiyyatı, müayinəsi, donorluq məlumatlarının və qan ehtiyatlarına nəzarətin elektronlaşdırılmasını təmin edən «Vahid Qan Bankı» sistemi ilə tanışlıq olub.

Səhiyyə Nazirliyi yanında İctimai Şura üzvlərini maraqlandıran suallar cavablandırılıb.

Z.Nəbiyeva bildirib ki, bu ilin sonunadək İctimai Şura tərəfindən monitorinqin nəticələrinə əsasən təklif və tövsiyələr hazırlanıb Səhiyyə Nazirliyinə təqdim olunacaq.

# Respublika Müalicə Diaqnostika Mərkəzində qadınlarda çanaq nahiyəsi problemləri üzrə təlim kursu keçirilib



**Respublika Müalicə Diaqnostika Mərkəzində Aralıq Dənizi İnkontinesiya və Çanaq Dibi Cəmiyyəti və Histeroskopiya və Minimal invaziv Cərrahiyyə Akademiyası ilə birgə təşkil olunan, «Qadınlarda çanaq dibi disfunksiyasının patogenezi və müalicəsi» mövzusuna həsr edilən təlim kursu keçirilib.**

Bu sahə üzrə ixtisaslaşmış əcnəbi professor və uroloqların iştirakı ilə baş tutan kursun ilk günündə qadınlarda geniş yayılan çanaq nahiyəsi problemləri üzrə bir sıra mühüm mövzular müzakirə edilib. Təlimin ikinci günü isə praktiki məşğələlərlə davam edib, iştirakçılara əməliyyat yolu ilə aparılan cərrahi müdaxilələr nümayiş olunub.

Aralıq Dənizi İnkontinesiya və Çanaq Dibi Cəmiyyətinin prezidenti Diaa Rizk, İspaniyadan olan uroloq Karlos Errando, fransalı professor Emmanuel Delorme və Gürcüstandan olan klinika rəhbəri Tengiz Asatiani öz bilik və bacarıqlarını təlimdə iştirak edənlərlə bölüşüblər.

# Şəkidə travmatoloqlar üçün səyyar kurs təşkil edilib

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Travmatologiya və ortopediya kafedrası Davamlı Tibbi Təhsil proqramına uyğun olaraq Şəki Mərkəzi Rayon Xəstəxanasında «Müştərək travma» mövzusunda səyyar kurs keçirib.**

Təlimdə Şəki şəhərində fəaliyyət göstərən həkimlərlə yanaşı, Qəbələ, Zaqatala, Balakəndən gələn travmatoloqlar iştirak ediblər.

Kursun əsas məqsədi müştərək travma zamanı təxirəsalınmaz yardımın təşkili prinsipləri, diaqnostika və təcili yardımın həyata kecirilməsi qaydalarını aşılamaqdan ibarət olub. Bununla yanaşı, müdavimlərə təxirəsalınmaz vəziyyətlərdə ümumi cərrah və neyrocərrahlarla birgə işin prinsipləri də izah edilib.

Dərsləri ADHTİ-nin Travmatologiya və ortopediya kafedrasının əməkdaşları aparıblar.

# Кто и как в Азербайджане изучает и прогнозирует будущее?



**Наш гость - Рейхан Гусейнова – председатель Азербайджанского общества исследований будущего (отделение Millennium Project в Азербайджане), вице-президент Общества дружбы Азербайджан-Франция, соучредитель University Foundation Center, кавалер Ордена почетного легиона.**

О процессе исследований будущего, Центре подготовки к Университетам и многом другом рассказала в интервью Media.az -Рейхан Гусейнова.

**- Немного о будущем… Как давно вы занимаетесь этим вопросом?**

- В этом году будет 15 лет. Всё началось с моего знакомства с директором международной организации Millennium Project - Джеромом Гленном. В 2005 году жизнь свела меня с выдающимся футурологом-Элеонорой Массини, которую в научно-экспертных кругах называют «матерью футурологии». После беседы с ней я поняла, что в нашей стране эта область практически не изучена, и ситуацию необходимо исправлять. В 2006 году мы создали Азербайджанское общество исследований будущего, и вскоре наша структура стала отделением международной организации Millennium Project в Азербайджане. Таким образом, мы стали 29-й страной, в которой было открыто представительство Millennium Project. Сегодня в эту организацию входят 65 отделений из 62 государств.

**- В Азербайджане преподают «прогнозирование будущего»?**

- Да. Среди наших проектов особое место занимают курс Форсайта (научного прогнозирования будущего), который шесть лет проводится совместно с Азербайджанским экономическим университетом (UNEC), «Проектом Тысячелетия» и Азербайджанским Обществом исследований будущего. Студенты Азербайджанского Государственного экономического университета за два семестра проходят онлайн-курс «долгосрочного прогнозирования», изучают различные научные теории прогнозирования, составления сценариев и индексов будущего. Кроме теоретических знаний, студенты занимаются практическими исследованиями под руководством профессоров из США, Канады, Венесуэлы, Японии. Более того, весь курс ведут зарубежные профессора во главе с директором «Проекта Тысячелетия» - Джеромом Гленном. В этом году мы решили расширить этот курс, и уже начиная с этого учебного года, он будет проводиться не только для студентов Азербайджанского государственного экономического университета, но и для учащихся Азербайджанского технического Университета, Бакинского инженерного Университета, а также Азербайджанского Государственного Университета нефти и промышленности. В 2019-20-х годах мы планируем провести очередной общенациональный конкурс сочинений «Лицом к лицу с будущими поколениями», который мы организовываем для школьников и студентов вузов. Этот конкурс, мы проводим с 2007 года по инициативе нашей головной организации, Министерства транспорта, связи и высоких технологий, Министерства образования, Министерства молодежи и спорта, а также Государственного комитета по вопросам семьи, женщин и детей. Суть конкурса состоит в том, чтобы ознакомить учебные заведения о 15-ти глобальных вызовах, стоящих сегодня перед миром «Проекта Тысячелетия», которые, по сути, являются отражением основных сфер жизни человечества.

Желающие принять участие в конкурсе должны изучить эту информацию и написать сочинение на тему: «в чём они видят решение этих проблем, относительно Азербайджана. Победителей ждут ценные призы, которые вруча руководители Министерств, ведущие ученые и эксперты нашей страны. Хочу отметить, что у нас уже есть положительный опыт - 15 работ победителей конкурса были переведены нами на английский язык и посланы в Мексику на Международный Конкурс «Проекта Тысячелетия». В течении трех лет победители нашего проекта участвовали в этом конкурсе в Мексике, причём азербайджанские школьники и студенты не несли никаких расходов.

**- Какие глобальные проблемы сегодня стоят перед человечеством?**

- Это проблемы устойчивого развития, доступа к чистой воде, роста населения и имеющиеся ресурсы, демократизация, глобальное развитие, информационные технологии, разрыв между богатыми и бедными в мире, угроза здоровью (появление новых вирусов и болезней), образование, конфликты в мире, вопросы гендерного равенства, транснациональная преступность, растущая потребность в энергии, развитие науки и технологий, а также вопросы этики и глобальные решения.

Наша международная организация издает ежегодный отчет «Состояние будущего», где отражены 15 глобальных вызовов, которые стоят перед человечеством. На титульном листе отчета каждый год, публикуется цитата, которая отражает состояние мира на данный год. Авторами цитат выступают всемирно известные ученые и политические деятели, например, Генеральный секретарь ООН. На протяжении нескольких лет стараниями нашего отделения авторами цитат выступали видные азербайджанские ученые и государственные деятели. Отметим, что этот отчет распространяется по всему миру и рассылается во все крупные международные организации.

В 2011 году Азербайджанское общество «Исследований будущего» совместно с «Проектом Тысячелетия» презентовала в Баку исследование по определению Индекса состояния будущего Азербайджана (AZ-SOFI), охватывающего 2011-2020 годы. Это было первое подобное исследование, проведенное в Азербайджане с применением методов Форсайта. «Индекс состояния будущего Азербайджана 2020» - это огромный научный труд, для работы над которым были привлечены не только ученые из Азербайджана, но и зарубежные эксперты. Специально из Вашингтона прибыл глава нашей глобальной организации Джером Гленн, который вручил первый экземпляр «Индекса состояния будущего Азербайджана (AZ-SOFI)» Президенту Азербайджанской Республики, господину Ильхаму Алиеву. Спустя короткое время, после вручения Президенту страны данного исследования, г-н Ильхам Алиев подписал распоряжение о разработке концепции развития нашей страны «Азербайджан 2020: взгляд в будущее».

**- Для развития успешного будущего большую роль играет образование. Вы также являетесь соучредителем University Foundation Center. Расскажите немного об этой стороне вашей деятельности?**

- Пять лет назад стояла у истоков преподавания по официальной британской программе Foundation на рынке образования Азербайджана. В 2014 году был дан старт первой в Азербайджане официальной Британской программе Foundation, идея которой заключалась, прежде всего в подготовке и адаптации выпускников средних школ к обучению за рубежом, причем сэкономив год, так как наши выпускники получили возможность поступать сразу на первые курсы зарубежных ВУЗов. На протяжении пяти лет мы набирались опыт, приобретали новых партнеров - и сейчас переходим на новую ступень своего развития - сотрудничество с одним из лучших колледжей Оксфорда. В процессе обучения применяются современные и инновационные методики преподавания и подготовки учеников для поступления в престижные зарубежные учебные заведения.

**- А что собой представляет программа Foundation?**

- Как вы знаете в Азербайджане 11-летняя система среднего образования, а в школах Великобритании, например, 12-летняя. Один год разницы между нашими системами образования заключается в том, что зарубежные школы последние два года обучения (11-12 класс) фактически готовят абитуриентов к поступлению в ВУЗ. Именно поэтому азербайджанские аттестаты, выдаваемые после окончания средней школы, часто не признаются эквивалентными аттестатам о среднем образовании тех стран, где принята 12-летняя система обучения. Таким образом, программа Foundation нужна для того, чтобы восполнить недостающий год для азербайджанских абитуриентов, которые желают пройти обучения в Великобритании. Раньше азербайджанским юношам и девушкам приходилось выезжать за рубеж, чтобы пройти годовой курс программы Foundation. Это было сопряжено с большими финансовыми затратами (оплата годового курса, проживание, питание), и что самое главное - не все родители готовы были отпустить своих 16 и 17-летних детей одних в другую страну.

Сегодня этот курс можно пройти, не покидая Азербайджан. Мы открыли английское направление для получения образования за рубежом. Позже присоединилось французское направление, а сейчас уже прибавилось и немецкое. Мы берем на себя абсолютно все, начиная от подготовки, поступления и заканчивая логистикой. К примеру, в Италии поступить в университет на бакалавра можно только после 18 лет, а учитывая, что большинство наших абитуриентов оканчивают школу в 16-17 лет, это становится проблемой для абитуриентов и их родителей. Мы решаем и такого плана проблемы. Вот уже три года подряд 17–летние выпускники University Foundation Center получают возможность поступать в итальянские университеты.

**- Как идет процесс обучения?**

- У нас основной упор делается на преподавателей – иностранцев (носителей языка). Мы основательно готовим наших абитуриентов к обучению за рубежом. Наравне с носителем языка, у нас преподают и местные педагоги. Мы учитываем все нюансы образования за рубежом. Это не только знание языка, но и навыки обучения и специфика университетской жизни в предпочитаемой студентом стране. Естественно, что мы сотрудничаем со многими зарубежными ВУЗами и предоставляем нашим студентам обширный выбор университетов многих стран мира. 2019 год стал знаковым для нас - мы получили аккредитацию Oxford Foundation, который предоставит нашим студентам множество привилегий.

**- Сколько детей уже поступило посредством вашей организации?**

- В этом году для учебы только во Франции для получения степени бакалавра и магистра мы подготовили 14 наших абитуриентов, это не считая абитуриентов, поступивших в университеты Канады и Англии.

**- Вы также являетесь обладательницей высшей награды Франции - Ордена Почетного легиона, учрежденного Наполеоном. Каково это быть кавалером такого почетного ордена?**

- Это большая честь, большая ответственность и большой стимул. Эта награда вдохновляет меня на новые свершения.

**- Вы являетесь вице-президентом Общества дружбы Азербайджан-Франция, в связи с этим, хотелось бы узнать, как вы сегодня оцениваете отношения между Азербайджаном и Францией?**

- Посольство Азербайджана во Франции проводит огромную работу. Мы со своей стороны вносим свою небольшую лепту. Так, например, наше Общество осуществило проект по приглашению современных французских писателей в Азербайджан. Деятели культуры Франции побывали в Баку, Сумгайыте, Габале и Шеки. По завершению своего визита, во Франции была издана книга «Nouvelles Nouvelles d`Azerbaidjan» («Новые новеллы об Азербайджане»), куда вошли новеллы восьми современных французских писателей, посетивших Азербайджан по нашей инициативе. В книге рассказывается о светской, толерантной стране с исторически заложенными традициями мультикультурализма.

Так же при поддержке Общества дружбы Азербайджан-Франции University Foundation Center отправляет молодых поваров на учебу во Францию, которые, в свою очередь, через наши национальные блюда, знакомят французов с азербайджанской культурой. Я всегда говорю нашим выпускникам о том, что, находясь во Франции, вы всегда должны помнить, что представляете не только себя, но и свою страну.

Меня очень радует тот факт, что все больше студентов из Азербайджана обретают знания в лучших университетах мира, так как будущий потенциал любой страны заключается в молодом поколении хорошо образованных людей.

**Джамиля АЛЕКПЕРОВА**

# Milli Oftalmologiya Mərkəzinin Şəki filialı açıldı

**Azərbaycanın şimal bölgəsinin əhalisinə yüksək ixtisaslı oftalmoloji yardımın göstərilməsi məqsədilə Şəki şəhərində Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin (MOM) filialı yaradılıb.**

MOM Şəki filialının rəsmi açılış mərasimində Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru Elmar Qasımov, tibb müəssisələrinin əməkdaşları, Türkiyə və Rusiyadan xarici qonaqlar, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.




### VII regional oftalmoloji konfrans

Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Şəki filialının açılması münasibətilə Səhiyyə Nazirliyi, Azərbaycan Oftalmoloqlar Cəmiyyəti və Milli Oftalmologiya Mərkəzinin təşəbbüsü ilə «Azərbaycanın regionlarında oftalmologiyanın inkişafı: problemlər və nailiyyətlər» mövzusunda VII regional konfrans keçirilib.

Tədbirdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək, ölkəmizdə səhiyyənin inkişafı üçün görülən işlərdən danışıb, Şəkidə Milli Oftalmologiya Mərkəzinin regional filialının fəaliyyətə başlamasını dövlət başçısının səhiyyəyə qayğısının nəticəsi, şəhərin həyatında əlamətdar hadisə adlandırıb. Mərkəzdə təcrübəli həkim-oftalmoloqların bütün göz xəstəliklərinin müayinə və müalicəsi ilə məşğul olacaqlarını söyləyib.

İcra hakimiyyətinin başçısı bildirib ki, MOM 70 ildən çoxdur oftalmologiya elminin inkişafında, əhalinin yüksək səviyyədə oftalmoloji xidmətlə təmin edilməsində mühüm rol oynayır. Bu xidmətlər yalnız paytaxt Bakı ilə məhdudlaşmır, regionlarda, o cümlədən Şəkidə də davamlı olaraq oftalmoloji aksiyalar keçirilir. Ötən müddətdə Mərkəzin əməkdaşları tərəfindən Şəkidə göz xəstəliklərindən əziyyət çəkən 4 mindən çox insan müayinə və müalicə olunub, 150 nəfərin gözündə cərrahi əməliyyat aparılıb.

Regional konfransda çıxış edən Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri, MOM-nin direktoru Elmar Qasımov bildirib ki, konfransın əsas məqsədi göz xəstəlikləri sahəsində yenilikləri, nailiyyətləri işıqlandırmaq, oftalmologiya üzrə ölkəmizdə keçirilən tədbirlərdə region həkimlərinin iştirakını, təkliflər verməsini təmin etmək, onların da bu yeniliklərdən istifadə etməsinə dəstək olmaqdır.

Mərkəzin direktoru qeyd edib ki, bölgələrdə Milli Oftalmologiya Mərkəzinin yeni filiallarının açılması qarşıda duran əsas vəzifələrdəndir, Şəkidə filialın fəaliyyətə başlaması



Azərbaycan oftalmologiyası üçün çox əlamətdar hadisədir: «Hazırda ölkədə 3 filial fəaliyyət göstərir, orada bizim böyük potensiala malik gənc oftalmoloqlarımız çalışırlar. Oftalmologiya elminin inkişafı üçün yüksək biliyə malik gənc kadrlar lazımdır və biz xoşbəxtik ki, belə gənc mütəxəssislərimiz, həkimlərimiz var».

Türkdilli Ölkələrin Oftalmoloji Cəmiyyətinin sədri, Türkiyənin Ankara şəhərindən gəlmiş doktor Sunay Duman çıxış edərək, konfransın işinə uğurlar arzulayıb.

Tədbirin elmi hissəsində Azərbaycan Oftalmoloqlar Cəmiyyəti sədrinin müavini, MOM Elmi-məlumat, təşkilati-metodik bölməsinin rəhbəri Yazgül Abdiyeva «Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin dünəni və bu günü» mövzusunda məruzə edib. Həmçinin Mərkəzin əməkdaşı Samir İbadov, türkiyəli professor, Retina Oftalmoloji Araşdırma Mərkəzinin təmsilçisi Süleyman Kaynak, rusiyalı professor Aleksey Yeqorov, Rusiya Elmi Tədqiqat Tibb Universitetinin əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Dmitriy Kats, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının təmsilçisi Şəhla Əsədova və digərlərinin göz xəstəlikləri ilə bağlı müxtəlif mövzularda elmi məruzələri dinlənilib.

Elmar Qasımov qonaqlara mükafat və hədiyyələr təqdim edib.

### Gənc oftalmoloqların konfransı

MOM Şəki filialının açılışı münasibətilə daha bir elmi tədbir Azərbaycan gənc oftalmoloqlarının «Müasir oftalmologiyanın son nailiyyətləri» mövzusunda XIII elmi-praktik konfransı olub.

Tədbiri açan professor Elmar Qasımov diqqətə çatdırıb ki, konfransın əsas məqsədi gənc oftalmoloqların bilik və bacarıqlarını nümayiş etdirməsi, oftalmologiya sahəsində əldə olunan son nailiyyətləri, yeni müayinə və müalicə metodlarını müzakirə etməsi və yüksək ixtisaslı mütəxəssislərin təcrübəsindən yararlanmasıdır.

Türkdilli Ölkələrin Oftalmoloji Cəmiyyətinin sədri Sunay Duman çıxış edərək, belə tədbirlərin gənc oftalmoloqlara yeni, müasir texnologiyaları öyrətmək baxımından olduqca faydalı olduğunu bildirib, konfransın işinə uğurlar arzulayıb.

Elmi-praktik konfransda MOM-nin əməkdaşları Rəvanə Həsənova «Müxtəlif sindromlar zamanı retinitis piqmentozanın xüsusiyyətləri», Aysel Əkbərova «Vaxtından əvvəl doğulmuşların retinopatiyasının müalicəsində ilkin nəticələrimiz», tibb üzrə fəlsəfə doktoru Aygün Səfərova «40 yaşdan yuxarı pasiyentlərdə keratorefraktiv əməliyyatların xüsusiyyətləri», tibb üzrə fəlsəfə doktoru Mirana Mirişova «Şübhəli topoqrafiyalı gözlərdə PRK üsulundan və CCL texnologiyasından istifadə etməklə miopiyanın və astiqmatizmin müalicəsi» mövzularında məruzələrlə çıxış ediblər.

Konfransda həmçinin «İrrequlyar astiqmatizmin qeyri-cərrahi korreksiya üsulları», «Eksimer-lazer cərrahiyyədə «contoura vision» yeni texnologiyanın tətbiqi», «Quru göz sindromunda invaziv müalicə üsulları», «Buynuz qişanın zədədən sonrakı xoralarının kliniki-laborator dəyərləndirilməsi» və digər mövzularda məruzələr dinlənilib.

# İlk onkologiya terminləri lüğəti hazırlanıb

**«Elm» nəşriyyatında akademik Əhliman Əmiraslanovun və Şirvan Abdullayevin birgə tərtib etdikləri «Onkologiya terminləri lüğəti» çapdan çıxıb. Azərbaycan tibb elminə qiymətli töhfə olan bu elmi mənbə müasir onkologiyaya dair terminləri 5 dildə — Azərbaycan, rus, latın, ingilis və fransız dillərində mütəxəssislərə təqdim edir.**

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə nəşr olunan, ölkəmizdə ilk dəfə işıq üzü görən bu irihəcmli lüğətin elmi redaktoru akademik Cəmil Əliyevdir.

«Onkologiya terminləri lüğəti»nin tərtibatında akademik Ə.Əmiraslanovun rəhbərliyi altında ATU-nun Onkoloji Klinikasında aparılan elmi-tədqiqat işləri, eləcə də onkologiyanın tədrisi sahəsində toplanan böyük elmi-pedaqoji təcrübə həlledici rol oynayıb. Kitabın I fəsli rusca-latınca-azərbaycanca, II fəsli rusca-ingiliscə-azərbaycanca, III fəsli rusca-fransızca-azərbaycanca terminləri əhatə edir.




Kitaba daxil edilmiş 4 əlavə bölmədə verilən məlumatlar, o cümlədən onkologiyada işlənilən şərti ixtisarlar, müəllif adları ilə bağlı termin və sözlər (eponimlər) nəzəri və praktik onkologiya ilə məşğul olan mütəxəssislər üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, lüğət müəlliflərinin nömrələdiyi şərti ixtisarlar (qısaldılmış sözlər) istənilən termini və sözü asanlıqla Azərbaycan dilindən rus dilinə və ya əksinə çevirməyə imkan yaradır.

Lüğətdə nəzəri və klinik onkologiya terminlərlə yanaşı, onkoloji xidmətin təşkilinə dair sözlər də yer alıb. Kitaba müasir terminlərlə yanaşı, köhnəlmiş, lakin tarixi əhəmiyyət kəsb edən ifadələr də daxil edilib. Məqsəd tələbələri və gənc həkimləri hazırda işlənməsi məsləhət görülməyən həmin terminlərdən xəbərdar etməkdir. Tibdə rast gələnən mübahisəli terminlərlə əlaqədar müəlliflər Ümumdünya Səhiyyə Təşkilatının «Xəstəliklərin Beynəlxalq Statistik Təsnifatı»na (10-cu baxış) istinad ediblər.

Çox dəyərli elmi mənbə olan bu lüğətdə rus dilindəki terminlərin azərbaycanca qarşılığı ilə yanaşı, latınca tərcüməsi, sinonimləri, qısa izahı, zərurət yarandıqda geniş şərhi də verilib. Müasir standartlara uyğun hazırlanmış «Onkologiya terminləri lüğəti» tələbələr, həkim-onkoloqlar, həkim-rezidentlər, elmi işçilər üçün qiymətli vəsait, etibarlı elmi mənbədir.

# I Cərrahi xəstəliklər kafedrasının 100 illiyi

**Azərbaycan Tibb Universitetinin (ATU) I Cərrahiyyə kafedrasında 61 fəlsəfə doktoru, 19 elmlər doktoru çalışıb. Kafedra əməkdaşlarının 73 dərsliyi, 101 kitabı, 700-dən çox məqaləsi işıq üzü görüb. Hazırda burada 10 elmlər, 7 fəlsəfə doktoru çalışır, endoskopik, metabolik, bariatrik, koloproktoloji, kardiovaskulyar cərrahiyyə, orqan və kök hüceyrə transplantologiya əməliyyatları uğurla aparılır.**

Bu barədə ATU-nun I Cərrahi xəstəliklər kafedrasının 100 illiyinə həsr olunan elmi toplantıda məlumat verilib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Kabinetinin qərarı ilə 1919-cu il oktyabrın 10-da yaradılan Bakı Dövlət Universitetində iki fakültədən biri Tibb fakültəsi, həmin fakültədə ilk kafedralardan biri məhz Cərrahiyyə kafedrası olub. Bir əsrlik yubileyi qeyd edilən bu kafedra ambulator cərrahiyyə əməliyyatları aparan elmi-tibbi müəssisədən bu gün laparoskopik və orqan transplantasiyası kimi ən müasir və mürəkkəb əməliyyatlar həyata keçirən mərkəzə çevrilib. Tədbirdə bu barədə danışan rektor, professor Gəray Gəraybəyli kafedranın rəhbəri olmuş, onun formalaşmasında əhəmiyyətli rol oynamış alimlərdən görkəmli cərrah Boris Finkilşteyni, azərbaycanlı professorlar Mirəsədulla Mirqasımovu, Böyükbəy Mahmudbəyovu, İsmayıl Məmmədovu, Həsən Sultanovu xatırladıb.

I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Nuru Bayramov kafedranın inkişaf tarixi, ayrı-ayrı dövrlərdə fəaliyyəti, yetirmələri, ölkəmizin tibb elminə göstərdiyi xidmət barədə ətraflı bəhs edib.

Kafedranın keçdiyi yolu əks etdirən sənədli film nümayiş olunub.

Xalq artisti, rejissor Oqtay Mirqasımov, AMEA-nın müxbir üzvü, professor Sudeyf İmamverdiyev, II Cərrahi xəstəliklər kafedrasının professoru Məmməd Nəsirov çıxış edərək, 100 illik yubiley münasibətilə kafedra əməkdaşlarını təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

# Bakıda Neonatologiya üzrə Beynəlxalq Konqres




**Azərbaycan paytaxtında Neonatologiya üzrə II Bakı Beynəlxalq Konqresi keçirilib. Tədbirdə Azərbaycan həkimləri ilə yanaşı, Türkiyə, Amerika Birləşmiş Ştatları, Rusiya, Gürcüstan, Qazaxıstan, İran, Ukrayna, Belarus, Özbəkistan və digər ölkələrin aparıcı alimləri və mütəxəssisləri olmaqla, ümumilikdə 200 nəfər iştirak edib.**

Toplantının açılışında Səhiyyə Nazirliyinin neonatologiya üzrə baş mütəxəssisi, Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun Yenidoğulanların reanimasiyası şöbəsinin müdiri Rüstəm Hüseynov qeyd edib ki, üçgünlük Neonatologiya Konqresinin əsas məqsədi tibb sahəsində, xüsusilə də neonatologiya profili üzrə müasir aktual problemlərin birlikdə həlli istiqamətində bilik və bacarıqları səfərbər etməkdən ibarətdir. Baş neonatoloq beynəlxalq konqres çərçivəsində keçirilən treninqlərin yenidoğulmuşlara göstərilən tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılması, bu sahədə çalışan tibb işçilərinin peşə bacarıqları və biliklərinin artırılması baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Öz çıxışlarında Ankara Universitetinin Tibb fakültəsinin professoru Ömer Erdeve, ABŞ-ın Vanderbilt Universitetinin Neonatologiya şöbəsinin dosenti Skot Qutri neonatologiyada müasir yanaşma prinsiplərindən danışıblar, təcrübi vərdişlər üzərində izahlar veriblər.

Konqres neonatologiya sahəsində çalışan aparıcı mütəxəssislərin əldə etdiyi son nailiyyətlərə, qarşıda duran aktual problemlərin həllinə yönəlmiş çıxışları və praktik vərdişlərin nümayişi formatında keçirilib. Tanınmış alimlərin 20-yə yaxın mühazirələri dinlənib, ekspert müzakirələr aparılıb.

Konqres çərçivəsində 2 gün ərzində beynəlxalq təlim kursu, elmin yeni nailiyyətlərinə həsr olunmuş nəzəri və praktik məşğələlər də keçirilib.

ABŞ-ın Vanderbilt Universitetinin Neonatologiya şöbəsinin dosenti Skot Qutri ölkəmizin müxtəlif bölgələrindən gələn həkimlərə neonatologiyada müasir yanaşma prinsiplərindən danışıb, praktik məsləhətlər verib. Təlimlər çərçivəsində elmi məqalələrin yazılması, klinik tədqiqatların təşkili və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

# Dünya Psixi Sağlamlıq Gününə həsr olunmuş elmi-praktik konfrans

**Bakıda Dünya Psixi Sağlamlıq Gününə həsr olunmuş "Psixi Sağlamlıq: intiharların profilaktikasında tibbi və icma əsaslı yanaşmalar" mövzusunda elmi-praktik konfrans keçirilib. Azərbaycanlı mütəxəssislərin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbirdə qeyd olunub ki, Dünya Psixi Sağlamlıq Gününün keçirilməsi psixi sağlamlıq problemləri və profilaktika üsulları barədə ictimaiyyətin məlumatlılığının artırılması məqsədi daşıyır.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada hər 40 saniyədə bir nəfər öz həyatına son qoyur. Digər ölkələrlə müqayisədə Azərbaycanda belə halların sayı çox olmasa da, təəssüflə qeyd etmək lazımdır ki, ölkəmizdə hər il 400-dək insan intihar edir. Bu barədə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli konfransda çıxışında deyib. İntiharların səbəblərinin müxtəlif olduğunu söyləyən natiq əsas diqqəti onların profilaktikasına yönəltməyin vacibliyini vurğulayıb.

ÜST-nin Azərbaycan ofisinin rəhbəri Hande Hermançı, UNICEF-in Azərbaycan üzrə rəhbəri Edvard Karvardin, Səhiyyə Nazirliyinin aparat rəhbəri Nadir Zeynalov, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Qəhrəman Haqverdiyev, Ombudsman Aparatının şöbə müdiri Rəşid Rumzadə öz çıxışlarında bildiriblər ki, ÜST və tərəfdaşları özünəqəsdə cəhd edən adamların lazımi qaydada müalicə edilməsini və nəzarətdə saxlanmasını, intihar hadisələrinin kütləvi informasiya vasitələrində ehtiyatla işıqlandırılmasını vacib sayırlar. Çıxışlarda Azərbaycanda psixi sağlamlığın müdafiəsi baxımından görülən tədbirlər, planlaşdırılan addımlar haqqında məlumat verilib. Qeyd olunub ki, 2011-ci ildə Səhiyyə Nazirliyi tərəfindən Psixi Sağlamlığın Müdafiəsinə Dair strategiya qəbul edilib, orada həm uşaq və yeniyetmələrin, həm də böyük yaşlı əhalinin psixi sağlamlığının qorunması ilə bağlı məsələlər öz əksini tapıb.

Konfransın elmi hissəsi tematik məruzələrlə davam edib.

# Ailəliklə kəskin respirator virus infeksiyalarından qorunaq!

**Mövsüm dəyişikliyi mövsümə uyğun xəstəliklərin aktivləşməsinə səbəb olur. Payız-qış mövsümündə əhali arasında ən çox yayılan kəskin respirator xəstəliklərdir (KRX). Bu xəstəliklər aşağıdakı ümumi əlamətləri ilə birləşmiş xəstəliklər qrupudur.**

- İnfeksion mənşəlidir: viruslar və bakteriyalar tərəfindən törədilir.
- Törədiciləri orqanizmə hava-damcı yolu ilə tənəffüs sistemi vasitəsilə keçir.
- KRX zamanı ilk növbədə məhz tənəffüs üzvləri zədələnir.

Bu xəstəliklərin böyük bir qrupu viruslar tərəfindən törədilən kəskin respirator virus infeksiyalarıdır (KRVİ): qrip, paraqrip, adenovirus, rinovirus və s.

KRVİ cox ağır fəsadlar verən xəstəliklərdir. İnsanlar KRVİ-yə əsasən əhalinin kütləvi toplandığı yerlərdə: məktəb, uşaq bağçası, ictimai nəqliyyat, tibb müəssisələri, ticarət mərkəzləri və s.-də yoluxur.

**Bu xəstəliklərdən qorunmağın ən yaxşı yolu immun sisteminin normal fəaliyyət göstərməsidir.**

**İmmunitet** orqanizmin daxili mühit sabitliyini müxtəlif yoluxucu agentlərdən və digər genetik yad maddələrdən qorumağa yönəlmiş proses və mexanizmlərdir. İmmun sistemi orqanizmi bakteriyalar, viruslar, parazitlər və sairdən müdafiə edir, mutasiyaya məruz qalmış hüceyrələrin kənarlaşdırılmasını (eliminasiyasını), bədxassəli şişlərə qarşı mübarizəni təmin edir.

**İmmun sisteminin mərkəzi orqanları** olan sümük iliyi və timus immun hüceyrələrinin yaranması və seleksiyasını təmin edir.

**İmmun sisteminin periferik orqanları** — dalaq, limfa düyünləri, limfa follikulları orqanizmin daxili mühitinin genetik sabitliyinə nəzarət edir.

**İmmunitetin anadangəlmə və qazanılma formaları var.** Qazanılma immunitet aktiv və passiv olmaqla iki yerə bölünür.

İmmunitet həmçinin spesifik və qeyri-spesifik olmaqla da iki yerə bölünür:

**Spesifik immunitet:**

- Spesifik amillərin fəaliyyəti orqanizmə daxil olmuş antigenlərin növündən asılı olur.
- Hər hansı bir antigenə qarşı spesifik müdafiə amili orqanizmi digər antigenlərdən qoruya bilmir.

**Qeyri-spesifik immunitet:**

- Qeyri-spesifik müdafiə amilləri orqanizmə daxil olmuş antigenlərin növündən asılı olmayaraq daim fəaliyyət göstərir.

**Dəri və selikli qişa orqanizmin xarici müdafiə baryerləridir.**

- Dəri və selikli qişanın tamlığı, musinaza, lizosim fermentləri müdafiə funksiyalarının yerinə yetirilməsi üçün olduqca vacibdir.
- Dəri və selikli qişanın baryer funksiyasında normal mikroflora da mühüm rol oynayır. Bu qrup mikroorqanizmlər normada örtük toxumalarının hüceyrələrinin adhezivlik reseptorlarını blokada etməklə patogen mikroorqanizmlərin bu hüceyrələrə adheziyasına mane olur.

**Qeyri-spesifik müdafiənin hüceyrəvi və humoral amilləri var.**

Orqanizmdə qeyri-spesifik hüceyrəvi müdafiə ilk növbədə faqositlər tərəfindən həyata keçirilir. Onların arasında mikro- və makrofaqlar ayırd edilir ki, bunlar hamısı birlikdə monosit-faqosit sistemini təşkil edir.

Orqanizmin bütün toxumalarında və qanda çoxsaylı qeyri-spesifik humoral müdafiə amilləri mövcuddur. Bu amillərə sekretor immunoqlobulinlər, komplement sisteminin zülalları, lizosim, C-reaktiv zülal, transferrin, interferon (IFN) və s. aiddir.

**İnterferon** (IFN) ancaq immunokompetent hüceyrələrdə deyil, eyni zamanda, somatik hüceyrələrdə də sintez olunur. O, növ spesifikliyinə malikdir, başqa sözlə, insan mənşəli IFN ancaq insanlar üçün əhəmiyyətlidir. IFN-in sintezinin induktoru hər şeydən öncə viruslardır. Bununla belə, bakteriyalar, göbələklər, mikoplazmalar və digər mikroorqanizmlər, eləcə də onların antigenləri və fitohemaqqlütinin (FHA) tipli qeyri-spesifik stimulyatorlar da IFN sintezinin induktorları ola bilər.

İnterferon nəqliyyat RNT-si və spesifik zülal sintezinə təsir etməklə sahib hüceyrələrində virusların replikasiyasını ləngidir və qeyri-spesifik olaraq bütün viruslara antivirus təsir göstərir. Məhz **Engystol** və **Gripp-heel** preparatları immun sisteminin qeyri-spesifik müdafiə mexanizmlərini aktivləşdirərək, virus infeksiyalarından qoruyur.




Bu preparatlar təbii tərkiblidir, nanodozalardadır, heç bir əlavə təsiri və əks göstərişi yoxdur. Hamilələr, süd verən analar, qocalar, hər yaşda uşaqlar istifadə edə bilər.

**ENGYSTOL**

**Farmakoloji təsiri:**

- İnterferon sintezini stimullaşdırır
- Virusların replikasiyasını inhibə edir
- Qranulositlərin faqositar aktivliyini stimullaşdırır

**Göstəriş:**

Virus infeksiyaları: qrip, KRVİ, herpes, qızılca, suçiçəyi, kəskin və latent virus infeksiyaları (HSV, CMV), hamilələrdə virus infeksiyaları, papilloma, virus hepatitləri.

**GRİPP-HEEL**

**Farmakoloji təsiri:**

- immunmodulədeici
- iltihab əleyhinə
- virus əleyhinə (qeyri-düz)

**Göstərişlər:**

KRVİ (qrip, paraqrip, adenovirus və s.), herpes infeksiyası, qızdırma və intoksikasiya ilə gedən digər infeksion xəstəliklər (otit, bronxit, traxeit, angina, uşaq infeksiyaları və s.), qrip və digər KRVİ-nin profilaktikası.

**GRIPP-HEEL + ENGYSTOL**

Xəstəliyin simptomlarını aradan qaldırır: profilaktika və ya KRVİ-nin ilk əlamətləri zamanı Gripp-heel + Engystol preparatlarından istifadə etdikdə xəstəliyə yoluxmanın, kəskin simptomların inkişafının və ağırlaşmaların qarşısını alır.

İmmun sistemini gücləndirir: Gripp-heel + Engystol qranulositlərin aktivliyini 41% artırır.

İkincili infeksiyaya yoluxmanın qarşısını alır, ağır fəsadların inkişafı riskini azaldır.

# Abunə kampaniyası başladı!

**2020-ci ilin I yarısı üçün abunə kampaniyası dekabr ayının 30-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

**«Tibb qəzeti» VÖEN 1400410961 İBAN AZ43İBAZ 38090019449323220204**

**h/h38090019449323220204 Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı**

**Kod: 805722 AZ03NABZ 01350100000000002944**

**BANK (VÖEN)9900001881 S W İ F T İBAZAZ 2 X**




**Abunəçilərin nəzərinə!**
**Qəzet sizə çatmadıqda poçt daşıma Məntəqəsinə müraciət etməyiniz xahiş olunur. Əlaqə telefonu: (012) 598-49-55**

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Respublika Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0

*Ünvan: A.Manaf küç., 22*
*Telefon: 421-63-41*

### 33 nömrəli Şəhər Poliklinikası

Müalicəvi-bədən tərbiyəsi üzrə təlimatçı - 1.0
Tibbi-statistik - 1.0

*Ünvan: Q.Abbasov küç., 11/6*
*Telefon: 491-55-81*

### Balakən Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Feldşer-laborant - 1.0

*Ünvan: R.Səmədov küç., 27*
*Telefon: (02429) 5-12-93*

### Naftalan Şəhər Mərkəzi Xəstəxanası

Böyük tibb bacısı (qardaşı) - 1.0
Tibb bacısı (qardaşı) - 2.0 (terapiya ş.)
Sahə tibb bacısı (qardaşı) - 1.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 2.0
Tibb bacısı (qardaşı) - 2.0 (cərrahiyyə ş.)
Tibb bacısı (qardaşı) - 2.0 (reanimasiya ş.)
Mama - 4.0
Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Həsənzadə küç., 5*
*Telefon: (02235) 2-16-24*

### Samux Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsi

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: A.Nəbiyev küç., 1*
*Telefon: (02227) 5-10-27*

### Qax Rayon Mərkəzi Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0
**Qaşqaçay HM**
Tibb bacısı (qardaşı) - 1.0
**Qum TM**
Tibb bacısı (qardaşı) - 1.0
**Sarıbaş TM**
Məntəqə müdiri - 1.0

*Ünvan: 9 Aprel küç., 8*
*Telefon: (02425) 5-20-36*

### 4 nömrəli Birləşmiş Uşaq Xəstəxanası

Laborant - 1.0

*Ünvan: Lökbatan qəs., 28 May küç., 30*
*Telefon: 445-31-09*

### 20 nömrəli Uşaq Poliklinikası

Tibb bacısı (qardaşı) - 1.0 (məktəb)
Laborant - 1.0

*Ünvan: M.Davudov küç., 3*
*Telefon: 469-25-66*

### 3 nömrəli Şəhər Klinik Xəstəxanası

Feldşer-laborant - 1.0

*Ünvan: Ə.Məmmədəliyev küç., 20*
*Telefon: 450-21-72*

### 22 nömrəli Uşaq Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Bakıxanov qəs*
*Telefon: 428-12-79*

### Qazax Müalicə Diaqnostika Mərkəzi

Tibb bacısı (qardaşı) - 2.0
Mama - 1.0

*Ünvan: Aslan Kəmərli küç., 2*
*Telefon: (02229) 5-07-88*

***Qeyd:*** *Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*

- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*

### 15 nömrəli Birləşmiş Şəhər Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0
Rentgen-texnik - 1.0

*Ünvan: Ə.Mehbalıyev küç., 14*
*Telefon: 427-88-97*

### 3 nömrəli Qadın Məsləhətxanası

Mama - 1.0

*Ünvan: Ə.Topçubaşov küç., 77*
*Telefon: 440-29-09*

### 16 nömrəli Birləşmiş Şəhər Xəstəxanası

Tibb bacısı (qardaşı) - 3.0

*Ünvan: Cilov adası, Bünyadzadə küç.,1*
*Telefon: 521-14-96*

### 6 nömrəli Şəhər Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: M.Hadi küç., 149*
*Telefon: 375-99-31*

### 17 nömrəli Uşaq Poliklinikası

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Q.Qarayev küç., 84*
*Telefon: 323-59-56*

### 10 nömrəli Uşaq Poliklinikası

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: İsmayıl Qutqaşınlı küç., 79*
*Telefon: 538-72-67*

### Biləsuvar Rayon Mərkəzi Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0 (qəbul ş.)
**Xırmandalı KSX**
Laborant - 1.0
**Nəsimi HM**
Laborant - 1.0

*Ünvan: H.Əliyev küç., 84*
*Telefon: (02529) 5-24-75*

### Bərdə Müalicə Diaqnostika Mərkəzi

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Bakı küç., 6*
*Telefon: (02020) 5-16-00*

### Zaqatala Rayon Mərkəzi Xəstəxanası

Tibb bacısı (qardaşı) - 1.0 (terapiya .ş.)
Rentgen-texnik - 1.0 (şüa-diaqn.ş.)
**Yengiyan TM**
Mama - 1.0

*Ünvan: Vidadi küç., 32*
*Telefon: (02422) 5-23-00*

### 2 nömrəli Klinik Psixiatriya Xəstəxanası

Tibbi-statistik - 1.0

*Ünvan: S.Rüstəmov küç., 40*
*Telefon: 440-42-21*

### 2 nömrəli Tələbə Poliklinikası

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Azadlıq prospekti 120*
*Telefon: 493-19-33*

### 7 nömrəli Şəhər Poliklinikası

Tibb bacısı (qardaşı) - 2.0
Tibbi-statistik - 1.0

*Ünvan: M.Rüstəmov küç.,1*
*Telefon: 375-53-66*

### Suraxanı Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: Ş.Məhərrəmov küç.,1,*
*Telefon: 452-24-07*

### Şəki Rayon Mərkəzi Xəstaxanası Publik Hüquqi Şəxsi

Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 1.0
Feldşer - 1.0
**Birləşmiş Uşaq Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan:M.Ə.Rəsulzadə pr. 164*
*Telefon: (02424) 5-21-25*

### Sumqayıt Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi

Feldşer-laborant - 1.0
Sanitar-feldşer - 1.0

*Ünvan: Natavan küç., 30*
*Telefon: (01865) 5-94-05*

### 3 nömrəli Şəhər Poliklinikası

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Qubanov küç., 6*
*Telefon: 594-63-41*

### 26 nömrəli Birləşmiş Şəhər Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Ramil Qasımov küç., 2*
*Telefon: 454-20-46*

### 2 nömrəli Klinik Uşaq Xəstəxanası

Tibbi-statistik - 1.0
Tibb bacısı (qardaşı) - 6.0

*Ünvan: S.Vurğun küç., 956-ci məh Telefon: 595-38-78*

## Başsağlığı

Azərbaycan Respublkası Səhiyyə Nazirliyi V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru, akademik Namiq Əliyevə həyat yoldaşı
**TAMİLLA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublkası Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru, professor Həqiqət xanım Qədirovaya həyat yoldaşı
**RAUF RZAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

## Astara Rayon Mərkəzi Xəstəxanası

Tibbi-statistik - 1.0
Pəhriz üzrə tibb bacısı (qardaşı) - 1.0
Laborant - 1.0 (laboratoriya)
Mama - 1.0 (ginekologiya ş.)

**Asxanakəran KSX**
Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Pəlikəş KSX**
Laborant - 1.0
Mama - 1.0

**Pensər KSX**
Tibb bacısı (qardaşı) - 1.0

**Ərçivan QHM**
Tibb bacısı (qardaşı) - 5.0

**Şüvi KHM**
Tibb bacısı (qardaşı) - 1.0

**Kakalos KHM**
Mama - 1.0

**Artupa KHM**
Mama - 2.0
Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Təngərüd KHM**
Mama - 1.0

**Hamoşam KHM**
Laborant - 1.0

**Siyaku KHM**
Mama - 1.0

**Ovala TM**
Məntəqə müdiri - 1.0

**Bala Şahağac TM**
Feldşer - 1.0

*Ünvan: M.Cavadzadə küç., 1*
*Telefon: (02522) 5-42-24*

## Xocavənd Rayon Mərkəzi Xəstəxanası

Mama - 2.0 (doğum şöbəsi)

**Muğanlı KHM**
Mama - 1.0

**Kurapatkin KHM**
Mama - 1.0

**Qaradağlı KHM**
Mama - 1.0
Feldşer - 1.0

**Əmirallar KSX**
Mama - 1.0
Feldşer - 1.0

**Salakətin TM**
Məntəqə müdiri - 1.0

*Ünvan: Beylaqanda Xocavənd qəs*
*Telefon: (02122) 3-54-00*

## Balakən Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsi

Tibb bacısı (qardaşı) - 1.0 (fizioterapiya ş.)
Tibb bacısı (qardaşı) - 1.0 (otorinolorinqologiya ş.)

**Gərəkli HM**
Mama - 1.0

**Məzimçay TM**
Məntəqə müdiri - 1.0

**Qazma HM**
Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: R.Səmədov küç., 1*
*Telefon: (02429) 5-52-05*

## Salyan Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsi

Tibb bacısı (qardaşı) - 10.0
Əməliyyat otağının tibb bacısı (qardaşı) - 1.0
Pəhriz üzrə tibb bacısı (qardaşı) - 1.0
Sahə tibb bacısı (qardaşı) - 2.0
Əczaçı - 1.0
Müalicə-bədən tərbiyəsi üzrə instruktor - 1.0
Mama - 1.0

**Birləşmiş Uşaq Xəstəxanası**
Sahə tibb bacısı (qardaşı) - 2.0 (pediatriya şöbəsi)
Pəhriz üzrə tibb bacısı (qardaşı) - 1.0

**Rayonlararası Psixiatriya Xəstəxanası**
Əmək terapiyası üzrə təlimatçı - 2.0
Tibb bacısı (qardaşı) - 1.0

**Rayonlararası Vərəm Əleyhinə Xəstəxana**
Böyük tibb bacısı (qardaşı) - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası**
Feldşer - 1.0

**Abadkənd HM**
Mama - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Babazanlı (yaşayış sahəsi) HM**
Tibb bacısı (qardaşı) - 2.0

**Birinci Varlı HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Parça Xələc KSX**
Mama - 1.0
Laborant - 1.0

**Qarabağlı HM**
Tibb bacısı (qardaşı) - 2.0

**Kolanı TM**
Tibb bacısı (qardaşı) - 1.0
Məntəqə müdiri - 1.0

**Kürsəngi HM**
Mama - 1.0
Feldşer - 1.0

*Ünvan: Kürqaraqaşlı kəndi*
*Telefon: (02125) 5-47-27*

## 6 nömrəli Birləşmiş Şəhər Xəstəxanası

Tibb bacısı (qardaşı) - 3.0
Pəhriz üzrə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Azadlıq pr., 195*
*Telefon: 412-38-41*

## Füzuli Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 2.0
Tibbi-statistik - 1.0

*Ünvan: Bala Behmenli kəndi*
*Telefon: (050) 334-94-27*

***Qeyd:*** *Müsabiqədə iştirak etmək istəyən namizədlər elan dərc olunduğu gündən etibarən 30 gün ərzində aşağıdakı sənədləri elanda qeyd olunan ünvana təqdim etməlidirlər:*

- *müəssisə rəhbərinin adına yazılmış ərizə;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *təhsil və ixtisas haqqında sənədlərin surəti;*
- *əmək kitabçasının surəti (mövcud olduğu halda);*
- *sağlamlıq haqqında arayış;*
- *nikah haqqında şəhadətnamənin surəti (mövcud olduğu halda).*

## ET Mamalıq və Ginekologiya İnstitutu

Tibb bacısı (qardaşı) - 1.0 (ginekologiya şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (anest.rean. və int.terapiya ş.)
Böyük elmi işçi - 1.0 (mamalıq bölməsi)
Kiçik elmi işçi - 1.0 (mamalıq bölməsi)

*Ünvan: B.Ağayev küç., 17/18*
*Telefon: 510-09-52*

## Milli Onkologiya Mərkəzi

Onkoginekologiya bölməsində:
Rəhbər - 1.0 (tibb üzrə fəlsəfə doktoru)

*Ünvan: H.Zərdabi, 79 b*
*Telefon: 537-70-81*

## Yevlax Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Sanitar-feldşer - 1.0
Feldşer-laborant - 2.0 (sanitar-gigiyena lab.)
Həkim-epidemioloqun köməkçisi - 5.0
Həkim-parazitoloqun köməkçisi - 1.0

*Ünvan: Q.Quliyev küç., 6*
*Telefon: (02233) 6-33-97*

## 9 nömrəli Şəhər Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 3.0
Tibb bacısı (qardaşı) - 2.0
Əczaçı - 1.0
Rentgen-texnik - 1.0

*Ünvan: Mir-Cəlal küç.,*
*Telefon: 568-08-30*

## 4 nömrəli Şəhər Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 2.0
Tibb bacısı (qardaşı) - 1.0
Laborant - 1.0
Provizor - 1.0

*Ünvan: Təbriz küç., 33*
*Telefon: 496-24-43*

## 4 nömrəli Vərəm Əleyhinə Dispanser

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: M.X.Şərifli küç., 25/14*
*Telefon: 421-24-50*

## 38 nömrəli Şəhər Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Zığ yolu, 22*
*Telefon: 371-60-33*

## 9 nömrəli Qadın Məsləhətxanası

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Azadlıq pr., 200*
*Telefon: 561-44-35*

## Psixonevroloji Uşaq Evi

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Ə.Əbdülrəhimov küç., 122*
*Telefon: 465-64-59*

## Şirvan Müalicə Diaqnostika Mərkəzi

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: M.Ə.Rəsulzadə küç., 99*
*Telefon: (02121) 5-61-00*

## Beyləqan Rayon Mərkəzi Xəstəxanası

Sahə tibb bacısı (qardaşı) - 2.0 (poliklinika şöbəsi)
Tibb bacısı (qardaşı) - 1.0 (cərrahiyyə şöbəsi)

**Birinci Şahsevən KSX**
Tibb bacısı (qardaşı) - 10.0

**Təzəkənd KSX**
Tibb bacısı (qardaşı) - 3.0

**Eyvazallar HM**
Feldşer - 1.0

**1-ci Aşıqlı HM**
Mama - 1.0

**Aşağı Çəmənli HM**
Mama - 1.0

**Əhmədli HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Tatalılar HM**
Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: S.Qazıyeva küç., 51*
*Telefon: (02122) 5-14-62*

## Tərtər Rayon Mərkəzi Xəstəxanası

Laborant - 1.0
Tibb bacısı (qardaşı) - 1.0 (ginekol. ş.)
Tibb bacısı (qardaşı) - 1.0 (terapiya ş.)
Tibb bacısı (qardaşı) - 1.0 (yoluxucu ş.)

**Uşaq Xəstəxanası**
Tibb bacısı (qardaşı) - 1.0

**Bəyimsarov KSX**
Mama - 1.0

**Evoğlu HM**
Tibb bacısı (qardaşı) - 3.0
Feldşer - 1.0

**Borsunlu HM**
Feldşer - 1.0
Mama - 1.0

**Qazyan HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Yuxarı Sarıcalı TM**
Mama - 1.0

**Seydimli HM**
Mama - 1.0

**Sarov HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Hacıqərvənd HM**
Feldşer - 1.0

*Ünvan: R.Mürsəlov 18*
*Telefon: (02223) 6-12-43*

## Tovuz Rayon Mərkəzi Xəstəxanası

Tibb bacısı (qardaşı) - 5.0 (poliklinika şöbəsi)
Laborant - 1.0 (kliniki-diaqnostik laboratoriya)

**Əsrik Çırdaxan KSX**
Tibb bacısı (qardaşı) - 4.0

**Yanıqlı KSX**
Tibb bacısı (qardaşı) - 1.0

**Böyük Qışlaq KSX**
Tibb bacısı (qardaşı) - 2.0

**Sarıtala KSX**
Tibb bacısı (qardaşı) - 8.0
Feldşer - 2.0
Mama - 2.0
Baş tibb bacısı (qardaşı) - 1.0
Laborant - 1.0

**Düz Qırıqlı KSX**
Tibb bacısı (qardaşı) - 1.0

**Qaraxanlı HM**
Mama - 1.0

**Dondar Quşçu HM**
Feldşer - 2.0

**Bozalqanlı HM**
Tibb bacısı (qardaşı) - 1.0
Mama - 1.0

**Yuxarı Öysüzlü HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Hunanlar HM**
Mama - 1.0

**Azaflı HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Əlibəyli HM**
Tibb bacısı (qardaşı) - 1.0

**Çatax HM**
Feldşer - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

**Mülkülü HM**
Mama - 1.0

**Kirən HM**
Mama - 1.0
Feldşer - 1.0
Tibb bacısı (qardaşı) - 3.0

**Baqqallı TM**
Məntəqə müdiri - 1.0

**Sofular TM**
Məntəqə müdiri - 1.0

**Qaradaş TM**
Məntəqə müdiri - 1.0

**Göyəbaxan TM**
Məntəqə müdiri - 1.0

*Ünvan: Şəhriyar küç., 32*
*Telefon: (02231) 5 - 71 - 42*

## 2 nömrəli Uşaq Poliklinikası

Sahə tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Xocalı küç., 35*
*Telefon: 490-26-48*

## 2 nömrəli Şəhər Klinik Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Yusif Səfərov küç., 19*
*Telefon: 490-11-71*

**Baş redaktor:**
**N.MƏCİDOVA**

**Baş redaktorun müavini:**
**S.NƏBİYEVA**

**Yayım direktoru:**
**Ş.MURADOV**

**Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.**

**Təsisçi:**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**

**Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92**

**Ünvan: Cəfər Cabbarlı, 34. 1-ci mərtəbə**
**E-mail: tibbqazeti@mail.ru**

**Tel./fax: 596-06-61**

**Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.**
**İndeks: 1065**
**Tiraj: 21900**


medinex
6-7
noyabr
2019
Fairmont Baku, Flame Towers
1-ci Azərbaycan
Beynəlxalq
Tibb İnnovasiyaları
Sərgisi və Forumu
Təşkilatçı
ceo
caspian event organisers
Tel.: +994 12 4474774 (1076)
Mob.: +994 55 2241000
E-mail: medinex@ceo.az
#Medinex
www.medinex.az


Azərbaycan Beynəlxalq
gözəllik
industriyası
sərgisi
Beauty
Azerbaijan
6-7 noyabr 2019
FAIRMONT BAKU
www.beautyexpo.az
BeautyAzerbaijan
#BeautyAzerbaijan
ceo
caspian event organisers
Təşkilatçı
Tel. : +994 12 404 10 00
Mob. : +994 55 224 10 00
E-mail: beauty@ceo.az


Abitrax
Ceftriaxone 1.0 qr.
Dozası və istifadə qaydası:
a/d və v/d (steril inyeksiya üçün su ilə) istifadə olunur.
Böyüklər və 12 yaşdan yuxarı gündə 1-2q.
12 yaşdan kiçiklərə 50-80 mq/kq/gün hesablanır.
Geniş təsir spektri
Yüksək penetrasiya
Yüksək bakterioloji və kliniki effekt
24 saat stabil konsentrasiya
Rahat istifadə (gündə 1 dəfə)
Güc sərhəd tanımır!


RABELOC
Rabeprazol
Uzunmüddətli antisekretor aktivlik
İstifadəsi qida qəbulundan asılı deyil
Digər dərman preparatları ilə qarşılıqlı təsirdə minimal risk
Rahat istifadə qaydası
Buraxılış forması:
10 mq №10 tablet
20 mq №10tablet
20 mq IV flakon №1
CADILA PHARMACEUTICALS


RhoGAM
antirezus immunoqlobulini 300 mkq (1500 BV)
Rezus - Mənfi
Qadınlarda sağlam nəsil
hazır şpris
Rezus mənfi qadınlarda rutin profilaktika məqsədi ilə hamiləliyin 28-34 həftəsində və doğuşdan sonra 72 saat ərzində bir şpris bir dəfə ə/d istifadə edilir.
+994 (012) 448 00 55
office@altesgroup.com
ALTES PHARM


MAILEN
Yumşaq vaginal kapsul No6
Qadın gülərsə mühitimiz güləcək!
ANTİBAKTERİAL
ANTİPROTOZOY
ANTİFUNQAL
REGENERASIYAEDICI
1 kapsuldan x1 dəfə intravaginal
ALTES PHARM